# Elə bir müsəlman kişi yoxdur ki, fərz namazının vaxtına yetişib, gözəl şəkildə dəstəmaz alsın, namazda xuşunu və rukunu gözəl şəkildə yerinə yetirsin və böyük günah işləməsin ki, bu namaz özündən əvvəlki günahlara kəffarə olmasın. Və bu hər zaman belədir

Osmandan (Allah ondan razı olsun) rəvayət olunur ki, o, dedi: Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğunu eşitdim: "Elə bir müsəlman kişi yoxdur ki, fərz namazının vaxtına yetişib, gözəl şəkildə dəstəmaz alsın, namazda xuşunu və rukunu gözəl şəkildə yerinə yetirsin və böyük günah işləməsin ki, bu namaz özündən əvvəlki günahlara kəffarə olmasın. Və bu hər zaman belədir.
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, bir müsəlman fərz namazının vaxtı daxil olduqda, gözəl şəkildə dəstəmaz alar və onu tamamlayar, sonra isə namazı, Allahın əzəmətini xatırlayaraq, qəlbi və bütün əzaları ilə Allaha yönələrək -yəni xuşu ilə qılarsa, namazın ruku, səcdə və başqa əməllərini yerinə yetirərsə, böyük günahlar etmədikcə, bu namaz özündən əvvəlki kiçik günahların kəffarəsi olar. Bu fəzilət hər vaxt və hər namazda davam edir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee